***ALİ MƏCLİSİN İCLASI***

*27 fevral 2024-cü il. Saat 10.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini* ***Anar İbrahimov*** *sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasının ikinci iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 33 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 10.01 dəq.) |
|---|---|
| İştirak edir | 33 |
| Yetərsay | 31 |

Bildiyiniz kimi, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə əsasən ən azı 31 deputat parlamentin işində iştirak etməlidir. Buna görə də iclas öz işinə başlamağa səlahiyyətlidir.

İclasın gündəliyinə aşağıdakı məsələlər verilir:

1. “Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli 26-VI QN nömrəli Qanunu ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi.

2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ əsasında hazırlanmış “Media haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun layihəsi.

3. Cari məsələlər.

Gündəliyə əlavəsi olan və ya qanun layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən varmı?

Yoxdur.

Deputatlardan kim iclasın gündəliyinin təklif olunan qaydada təsdiq edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 10.02 dəq.) |
|---|---|
| Lehinə | 33 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 33 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul olundu.

Gündəlikdə duran birinci məsələ "Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli 26-VI QN nömrəli Qanunu ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi barədədir.

Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə 6 oktyabr 2023-cü il tarixdə dəyişikliklər edilmişdir. Ali Məclisin Daxili Nizamnaməsində həmin dəyişikliklərə müvafiq uyğunlaşdırma aparmaq məqsədilə qanun layihəsi hazırlanmış, deputat həmkarlarıma paylanılmış və Hüquq siyasəti komitəsində müzakirə olunmuşdur.

Qanun layihəsi barədə məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribliyə verilir.

**İ.Qəribli,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Anar müəllim! Hörmətli deputatlar!

Qeyd etdiyiniz kimi, Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 6 oktyabr 2023-cü il tarixli Qanununa uyğun olaraq Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli Qanunu ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsində dəyişiklik edilməsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi hazırlanmışdır. Təklif olunan dəyişikliklə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 16-cı maddəsinin adında və 16.1-ci maddəsində Ali Məclisin komitələrində "qanun və qərar layihələrinin hazırlanması" sözlərindən sonra "razılaşdırılması" sözünün əlavə olunması nəzərdə tutulur. Qeyd olunan qanun layihəsi uyğunlaşdırma xarakterlidir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 16.9-16.12-ci maddələri Ali Məclisə təqdim olunmuş qanun layihəsiylə bağlı müxtəlif məsələlərin razılaşdırılması ilə bağlıdır. Göründüyü kimi, dəyişikliklər edildikdən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 16-cı maddəsinin adı onun mətninə uyğun olacaqdır. Həmçinin, dəyişikliklərdən sonra Daxili Nizamnamənin 16-cı maddəsi "Normativ hüququ aktlar haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 23-cü maddəsinin tələblərinə uyğunlaşdırılacaqdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 16-cı maddəsinə əsasən 20 fevral 2024-cü il tarixli Hüquq siyasəti komitəsinin iclasında qanun layihəsinə baxılmış və layihənin Ali Məclisin plenar iclasında müzakirə edilməsi qərara alınmışdır. Komitənin yekun rəyi ondan ibarətdir ki, Qanun layihəsi qəbul edilə bilər.

**Sədrlik edən.** Çox sağ olun, İsmayıl müəllim!

Ali Məclisin Daxili Nizamnaməsinin 18.1-ci maddəsinə əsasən, Ali Məclisdə uyğunlaşdırma məqsədi ilə hazırlanmış qanun layihələrinə bir oxunuşda baxılır.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının 2023-cü il 1 avqust tarixli 26-VI QN nömrəli Qanunu ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 10.05 dəq.) |
|---|---|
| Lehinə | 33 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 33 |

Nəticə: Qəbul edildi

Gündəlikdə duran ikinci məsələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ əsasında hazırlanmış "Media haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi barədədir.

"Media haqqında" Azərbaycan Respublikasının Qanunu və buna müvafiq olaraq qəbul edilmiş Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 17 sentyabr tarixli 1844 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasında çap mediası subyektinin təsisçisi ola bilən dövlət orqanlarının dəqiq siyahısı müəyyən edilmişdir. Müvafiq normativ hüquqi aktlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin çap mediası subyektinin təsisçisi olmaq səlahiyyəti nəzərdə tutulmamışdır. Belə olan halda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəsmi orqanı olan "Şərq qapısı" qəzetinin təsisçisi qismində çıxış etməsi mövcud qanunvericiliklə ziddiyyət təşkil edir. 1921-ci ildən nəşr edilən, ölkəmizin və muxtar respublikamızın ictimai-siyasi həyatında özünəməxsus rolu olan, muxtar respublikada yeganə rəsmi qəzetin gələcək fəaliyyətinin müəyyənləşdirilməsi və maliyyələşdirilməsinin tənzimlənməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququndan istifadə etmək qərarına gəlmişdir. Ali Məclisin qanunvericilik təşəbbüsü hüququ əsasında "Media haqqında" Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişiklik edilməsi məqsədilə qanun layihəsi hazırlanmışdır. Layihə "Media haqqında" Azərbaycan Respublikası Qanununun 59.2-ci maddəsinə dəyişiklik etməklə siyahısı Azərbaycan Respublikası Prezidenti tərəfindən müəyyən edilən orqanlar (qurumlar), Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin də çap mediası subyektinin təsisçisi olmasını nəzərdə tutur.

Təqdim edilən Azərbaycan Respublikasının Qanun layihəsi Ali Məclisin Daxili Nizamnaməsinin 15-ci və 16-cı maddələrinə uyğun olaraq Ali Məclisin iclasında baxılmaq üçün hazırlanmış, deputatlara paylanılmış, 20 fevral 2024-cü il tarixdə isə Hüquq siyasəti komitəsinin iclasında müzakirə olunmuşdur. Müzakirələrin nəticəsi olaraq Hüquq siyasəti komitəsi qanun layihəsinin "Normativ hüququ aktlar haqqında" Azərbaycan Respublikasının 2010-cu il 21 dekabr tarixli 21-IVKQ nömrəli Konstitusiya Qanununun tələblərinə uyğun hazırlandığını qeyd etmiş, layihənin baxılması və qəbul edilməsi üçün Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim olunması barədə rəy qəbul etmişdir.

Qanun layihəsi ilə bağlı məlumat verməsi üçün söz Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribliyə verilir.

**İ.Qəribli,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Hörmətli Anar müəllim, qeyd etdiyiniz kimi, qanunvericilikdə edilmiş sonuncu dəyişikliklərdən sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və ya Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Şərq qapısı" qəzetinin təsisçisi olması qanunvericiliklə müəyyən edilməyib. Azərbaycan Respublikası Konstitusiyasının 149-cu, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 49-cu və "Normativ hüququ aktlar haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 77-ci maddəsinin tələblərinə görə normativ hüququ aktların qüvvəyə minməsi üçün onlar rəsmi dərc edilməlidir. Normativ hüququ aktların rəsmi dərc edilməsi dedikdə, həmçinin onların mətninin rəsmi dövri mətbu nəşrdə dərc edilməsi nəzərdə tutulur. Bundan başqa, 103 yaşlı "Şərq qapısı" qəzeti həm də muxtar respublikanın ictimai-siyasi həyatını özündə əks etdirən salnamə rolunu oynayır. Buna görə də "Şərq qapısı" qəzetinin fəaliyyəti üçün hüquqi əsasın yaradılması zərurətə çevrilib. Bildiyiniz kimi, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququna malikdir. Bu müddəaya uyğun olaraq "Media haqqında" Azərbaycan Respublikası Qanununun 59.2-ci maddəsində müvafiq dəyişikliklər edilməsi üçün Azərbaycan Respublikası Qanununun layihəsi hazırlanmışdır. Layihənin hazırlanmasında

məqsəd Naxçıvan Muxtar Respublikası Ali Məclisinin “Şərq qapısı” qəzetinin təsisçisi statusunun qanunvericilikdə təsbit edilməsi və qəzetin fəaliyyətinin təmin olunması üçün hüquqi əsasın yaradılmasıdır. Qanun layihəsində Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Konstityusiya Məhkəməsi və Azərbaycan Respublikasının Ali Məhkəməsi ilə yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin də çap mediası subyektinin təsisçisi ola bilməsi öz əksini tapmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 17.2-ci maddəsinə əsasən 20 fevral 2024-cü il tarixdə Hüquq siyasəti komitəsinin iclasında qanun layihəsinə baxılmış və layihənin Ali Məclisin plenar iclasında müzakirə edilməsi qərara alınmışdır. Komitənin yekun rəyi ondan ibarətdir ki, qanun layihəsi qəbul edilə bilər.

**Sədrlik edən.** Çox sağ olun, İsmayıl müəllim!

Əlavə olaraq qeyd etmək istərdim ki, həqiqətən bu, bizim üçün çox prinsipial məsələdir. Məsələnin hüquqi tərəfini Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli bildirdi. Naxçıvan Muxtar Respublikasının rəsmi qəzeti olan “Şərq qapısı” qəzeti həm də bizim hüquqi aktlarımızın dərc ediləcəyi yeganə qəzetdir. Bundan başqa, məsələnin siyasi tərəfi də var. “Şərq qapısı” qəzeti Ulu Öndərin və Naxçıvan Muxtar Respublikasının irsinin böyük bir tərkib hissəsidir. Bu qəzetin dövlət qəzeti kimi fəaliyyətini davam etdirməsi bizim üçün vacibdir. Düzdür, məsələnin qoyuluşu “Media haqqında” Qanuna dəyişiklik edilməsi barədədir, amma gizli deyil ki, bunu məhz “Şərq qapısı” qəzetinə görə edirik. Hesab edirəm ki, bu, mühüm addımdır və ümid edirəm ki, ölkə parlamenti - Milli Məclis bu məsələyə həssas yanaşacaq və qanunda müvafiq dəyişikliyi həyata keçirəcəkdir.

Hörmətli deputatlar!

Ali Məclisin Daxili Nizamnaməsinin 17.3-cü maddəsinə əsasən Ali Məclisin qanunvericilik təşəbbüsü hüququnun həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının müvafiq qanununun qəbul edilməsini nəzərdə tutan layihə deputatların 23 səs çoxluğu ilə qəbul edilir. Bu barədə qəbul edilən qərar Ali Məclis sədrinin müşayiət məktubu və müvafiq layihə əlavə olunaraq baxılması üçün Azərbaycan Respublikasının Milli Məclisinə göndərilir.

Çox təəssüf ki, bu prosedurdan son on illiklərdə Ali Məclisdə az istifadə olunmuşdur. Ali Məclisə icra etdiyi bu prosedurun qaytarılması siyasi müzakirə mədəniyyətinin gətirilməsində böyük uğurlardan biridir.

İcazənizlə qərarı diqqətinizə çatdırım.

Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin I hissəsinə və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 10-cu bəndinə əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

1. “Media haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanun layihəsi məqsədəmüvafiq hesab edilsin.
2. Qanun layihəsi baxılması üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilsin.

Deputatlardan kim “Media haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanun layihəsinin qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 10.15 dəq.) |
|---|---|
| Lehinə | 33 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 33 |

Nəticə: Qəbul edildi

Gündəlikdə duran sonuncu məsələ cari məsələlərlə bağlıdır.

Söz növbə ilə cari məsələlərlə əlaqədar çıxış etmək istəyən deputatlara veriləcək.

Cari məsələlərlə bağlı çıxış etmək üçün söz 22 saylı Şıxmahmud seçki dairəsindən olan deputatımız Turan xanım Məmmədliyə verilir.

**T.Məmmədli.** Hörmətli Anar müəllim! Hörmətli həmkarlar!

22 saylı Şıxmahmud seçki dairəsindən deputat seçilmişəm və orada kəndlərimizdən biri olan Payız kəndində sakinlərlə görüş zamanı mənə şifahi müraciət ünvanlayıblar. Belə ki, Payız kəndinə gələn içməli su ilə bağlı problem var. Suyun mənbəyi kənddən bir az yuxarıda, Cəhri çayının ərazisində, Gərməçataq çayının sahilində yerləşir. Suyun içərisində ağac cilləri, gözlə görünəcək şəkildə bakteriyalar, qum və daş hissəcikləri olur. Qeyd etmək istəyirəm ki, suyun mənbəyindən kəndin mal-qarası, o cümlədən, Çalxanqala və Təzəkənd kəndlərindən sürü halında yay otlaqlarına gətirilən mal-qara və orada olan bütün vəhşi heyvanlar o sudan qidalanır. Suyun mənbəyi açıq olduğundan təbiidir ki, xəstəlik mənbəyi hesab olunur.

Həmçinin kəndə gələn, uzun müddət bundan əvvəl təmir olunan su boruları dəmirdən olduğuna görə hamısı tamamilə çürüyüb. Bu da su itkisinə səbəb olur. Su boruları elə yerə qoyulmuşdur ki, yayda suyun səviyyəsi aşağı düşən kimi, demək olar ki, kəndin bir tərəfində ümumiyyətlə su olmur, digər tərəfində isə suyun səviyyəsi həddindən artıq azalır. Əhalinin xahişi ondan ibarətdir ki, suyun təmizlənməsinə köməklik göstərilsin. Eləcə də su filtrlərinə baxış keçirdik, onlar elə bir vəziyyətdədir ki, yayda ümumiyyətlə bakteriyalar və suyun çirkli olması suyu içməli vəziyyətdən çıxarır. Xahiş edirəm ki, bununla bağlı müraciətimiz müxtəlif qurumlara ünvanlansın. Əslində müraciətimizi yazılı şəkildə bildirmək istəyirik, amma bəzən yazılı şəkildə göndəriləndə sadəcə gəlib baxıb gedirlər, heç bir tədbir görülmür. “Naxçıvan Muxtar Respublikasının Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinə müraciətimizi bu yolla səsləndirmək istədim. Suyun vəziyyətinə görə artıq o sudan istifadə edə bilmirik. İstifadə etmək üçün içməli suyu kənar ərazilərdən gətiririk.

Diqqətiniz üçün minnətdaram!

**Sədrlik edən.** Çox sağ olun, Turan xanım!

Bir haşiyə çıxım ki, deputat həmkarlarımın cari məsələlərlə bağlı müraciətlərində tez-tez bu məsələlər ortaya çıxır. Hamınızın sorğu vermək səlahiyyətləri var və onun texniki imkanları da sizə verilmişdir. Sorğu vermək səlahiyyətlərinizdən istifadə edərək dövlət qurumlarına müraciət etməyinizi tövsiyə edərdim. Çox təəssüf ki, “Naxçıvan Muxtar Respublikasının Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi dəyişsə də, işində dəyişiklik yoxdur. Ali Məclisə daxil olan bir çox şikayətlərdə “Naxçıvan Muxtar Respublikasının Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin məqbul olmadığı məlumdur və bunu gizlətmək olmaz. Əgər deputat həmkarlarım etiraz etmirsə, bu sahədə araşdırma aparılması üçün məsələni ümumiləşdirib hökumətə verək. Təbii ki, “Naxçıvan Muxtar Respublikasının Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyəti sadəcə suyun verilməsinə cavabdeh təşkilat deyil. Naxçıvan Muxtar Respublikasında bilirsiniz ki, su ilə bağlı dövlət siyasətinin hazırlanan qaydada keçirilməsində də “Naxçıvan Muxtar Respublikasının Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin suyun keyfiyyəti ilə bağlı bəzi öhdəlik və səlahiyyətləri var. Bu öhdəliklərə onların diqqət göstərməsi üçün biz də Ali Məclisin deputatları olaraq ciddi yanaşmalıyıq və təklif edirəm ki, bu məsələni hökumət qarşısında qaldıraq. Ötən iclasda da fikir verdiyiniz kimi, Ali Məclisə daxil olan şikayətlərin bir çoxu məhz bu sahə ilə bağlı idi. Ehtiyac yarandıqda, həmin sahənin rəhbərliyini də dəvət edib, dinləyəcəyik. Xahiş edirəm ki, Ali Məclisin Aparatı bu məsələni diqqətə alsın və hökumətə yönləndirilməsinə köməklik göstərsin.

Çıxış üçün söz Sosial siyasət komitəsinin sədri, 11 saylı Həmzəli seçki dairəsindən olan deputatımız Yeganə xanım Məmmədovaya verilir.

**Y.Məmmədova,** *Ali Məclisin Sosial siyasət komitəsinin sədri.*

Hörmətli Anar müəllim!

Sizi və bütün sessiya iştirakçılarını salamlayıram və sessiyanın işinə uğurlar arzulayıram!

Bilirsiniz ki, dünən XX əsrin ən böyük faciəsi olan Xocalı soyqırımının ildönümünü qeyd etdik. 32 il bundan əvvəl qədim tarixə malik Xocalı ərazisi erməni vəhşiliyi nəticəsində yerlə-yeksan olmuş, əhalisi soyqırıma məruz qalmışdı. Öldürülmüş 613 nəfərin 106-sı qadın, 63-ü uşaq, 70-i qoca idi, 56 nəfəri xüsusi qəddarlıqla öldürmüşdürlər. 150 nəfərin isə taleyi bu gün də məlum deyil. Bu günədək azad olunmuş ərazilərdə 13 kütləvi məzarlıq aşkarlanıb. Məhz elə 24 fevralda Xocalı ərazisində kütləvi məzarlıq aşkar edilmişdir. Dəhşətlisi odur ki, tapılmış cəsədlər əlləri bağlanmış qadın və uşaqlar idi. Məqsədim heç də sizə Xocalı soyqırımının dəhşətləri haqqında danışmaq deyil. Əsas odur ki, Xocalı bu gün azaddır. Xocalıda Azərbaycan bayrağı dalğalanır, tikinti-bərpa işləri gedir. Əhali qısa zamanda doğma yurduna yaşamağa qayıdır. Bu ərazilərdə Zəfər seçkiləri keçirildi. Ölkə Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Orada verdiyim səs, o qutuya atdığım bülleten sadəcə olaraq bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi". Bütün bunlar onu deməyə əsas verir ki, ərazi bütövlüyümüz əbədi olaraq təmin edilmiş, Azərbaycan bundan sonra bir qarış torpağını düşmənə güzəştə getməyəcəkdir.

Dəyərli həmfikirlər, bu gün həm də ilin su çərşənbəsidir, fürsətdən istifadə edib bütün xalqımızı, sizləri, dəyərli Anar müəllim, sizi su çərşənbəsi münasibətilə təbrik edirəm. Güman edək ki, su ilə bağlı qaldırdığımız məsələlər məhz su çərşənbəsində həll olunsun.

İcazənizlə bir sıra məsələlərə toxunmaq istəyirəm. Hər bir xalqın, o cümlədən, Azərbaycan xalqının milli atributlarından biri himndir. Himn isə uca səslə, sayğı duruşu ilə ifa olunmalıdır. Təəssüflər olsun ki, çoxumuz sanki oxumağa utanırıq. Məncə, bu, düzgün deyil. Başqa ölkələrin təcrübəsinə baxdıqda bir daha əmin oluruq ki, Əhməd Cavadın o möhtəşəm sözlərini Üzeyir bəyin ecazkar musiqisində birləşdirən himnimizi yetərincə təbliğ etmək üçün ilk olaraq biz oxumalıyıq. Təklif edirəm ki, hər dəfə himnimiz səslənəndə hər birimiz sona qədər, ucadan səsləndirək. 37 ildir müəllim işləyirəm və onun 22 ilini direktor işləmişəm. Hər gün şagirdlərlə birlikdə himni oxuyuram və bu, mənim üçün adi hala çevrilib. Kiçik bir arayış vermək istəyirəm ki, 1990-cı illərdə Azərbaycan qadınları ilə türk qadınlarının görüşü olmuşdu. Görüşdə iştirak etməmişəm, amma rəsmi qaydada bizə məlumat verilmişdi ki, Həsrət körpüsünə yaxınlaşanda hər kəs öz dövlət himnini oxumalı idi. Türk qadınları bir əlində Azərbaycan, digərində isə Türkiyə bayrağı tutaraq "İstiqlal" marşını oxuyublar. Sıra bizim xanımlara çatanda 2 nəfərdən başqa hər kəs himnimizi səsləndirməyə utanıb, amma türk qadınları himnimizi bizimlə bərabər oxuyublar. Vətənpərvərlik elə buradan başlayır. Ona görə xahiş edərdim ki, himnimizi sona qədər, ucadan səsləndirək.

Başqa bir məsələ təqaüddə olan müəllimlərimizin müraciəti ilə bağlıdır. Bu müəllimlərdən biri deyir ki, "40 ildən artıq müəllim işləmişəm və çoxlu yetirmələrim var." Özü savadlı riyaziyyat müəllimidir. 65 yaşı tamam olanda sadə bir tədbirlə təqaüdə yola salınıb. Müəllim isə qeyd edir ki, mən əməkdar müəllim kimi təqaüdə çıxmaq istəyirdim. Bu cür həssas müəllimlərimizi nəzərə almaq lazımdır. Hətta bəzən eşidirik ki, 2-3 il təcrübəsi olan şəxslərə də "əməkdar müəllim" adı verilib. 40 ildən artıq işləmiş bir müəllimi qiymətləndirməliyik.

Digər bir məsələ əczaxana ilə bağlıdır. Rayon mərkəzindən kənarda yerləşən bir neçə kənd üçün kiçik bir əczaxananın açılması çox vacibdir. Sadəcə bir ağrıkəsici dərman üçün rayon mərkəzinə gedən vətəndaş əlavə yol pulu verir ki, bu da həmin dərmanın ikiqat qiymətinə başa gəlir. Hətta bəzən gecələr də dərman almağa ehtiyac yaranır, amma kənd yeri olduğundan rayon mərkəzinə getmək çətin olur. Bir neçə kənddə bir bankomat qoyulduğu kimi eynilə əczaxana da açmaq olar. Bu, əczaxanada işləmək üçün sertifikatlar almış şəxslər üçün də çox yaxşı olar. Əczaxanaların açılması məsələsinə baxılmasını xahiş edirəm.

Bilirsiniz ki, bu il "Yaşıl dünya naminə həmrəylik ili"dir. "Təmiz kənd, məhəllə, küçə, məktəb" devizi ilə ilboyu aksiyalar keçiriləcəkdir. Lakin tullantıların təmizlənməsi böyük bir problemdir. Tullantıların müəyyən olunmuş bir vaxtda daşınması yaxşıdır, amma tullantı qablarının sayı azdır. Xahiş edirəm ki, qəsdən ətraf mühiti çirkləndirən vətəndaşlar hüquqi qaydada cərimə olunsun. Hətta cərimənin miqdarı artıq olmalıdır ki, növbəti dəfə bu hal

təkrarlanmasın. Məqsədim ölkələri müqayisə etmək deyil, amma xarici ölkələrdə "yaşıllığa toxunmaq olmaz" kimi lövhələr asılır və vətəndaşlar onlara əməl edir, lakin bizim ölkədə "siqaret çəkmək zərərlidir", "siqaret kötüyünü yerə atmayın" deyilsə belə siqaret kötüyünü yerə atırıq. Əgər bu cür şəxslər cərimələnsə bu hal yenidən təkrarlanmaz.

Növbəti məsələ Arpaçay su kanalının təmizlənməsi ilə bağlıdır. Qeyd edim ki, dəfələrlə su haqqında təkrarlanan müraciətlərdən sonra yaxşı haldır ki, "se-dva" adlanan ərazidə tikinti işləri yekunlaşır. Şahbulaq kəndindəki "Şahbur" suyu ilə "se-dva" adlanan ərazidə olan suyu artıq birləşdirib kəndlərə verirlər və bir neçə gündən sonra açılış olacaq. Eləcə də mən də orada iştirak edəcəyəm. Əlavə olaraq Arpaçay kanalından sovet dövründə 6 böyük boru ilə Şərur rayonunun əksər kəndlərinə su verilirdi. Lakin indi 2 boru istifadə olunur. Kanalın dərinliyi təxminən 2 metr idi. Hazırda kanalın su səviyyəsi o qədər enib ki, gəlib kəndlərə çatmır. Əgər həmin kanalda beton bərkitmə işləri aparılarsa və qrafikləşdirilərsə su ilə bağlı bütün problemlərimiz azalar. Çünki həmin kanal Şərur rayonunun bir neçə kəndini su ilə təmin edə bilər.

Diqqətinizə görə minətdaram!

**Sədrlik edən.** Çox sağ olun, Yeganə xanım!

Bu məsələləri yazılı şəkildə Ali Məclisə təqdim etməyinizi xahiş edirəm. Qısa olaraq fəxri adların verilməsi ilə bağlı fikrinizə münasibət bildirim, çünki fəxri adların verilməsi Ali Məclis sədrinin səlahiyyətindədir və onun vəzifəsini müvəqqəti icra edən kimi mənim də məsuliyyətim var. Deputat həmkarlarım qarşısında bəzi məsələlərə aydınlıq gətirmək istəyirəm ki, bu haqda Aparatla bir neçə dəfə danışmışıq. Fəxri adların verilməsində şəffaflığı təmin etməliyik. Bəzən fəxri adlar kiminsə mülkiyyəti kimi təqdim olunur, lakin fəxri adlar muxtar respublika adından verilir. Fəxri adların verilməsi ilə bağlı mövcud qanunvericiliyi də qüsurlu sayıram. Təklif edirəm ki, buna bir daha baxaq, çünki fəxri adlar verilən şəxslərə aid prinsiplərlə bağlı haqlı suallar gəlir. Xahiş edirəm ki, deputat həmkarlarım bundan geri qalmasınlar, təklifləri varsa versinlər. Hökmən deyil ki, Azərbaycan Respublikasında mövcud olan normativ hüquqi aktı eynilə saxlayaq. Əgər fəxri adların verilməsiylə bağlı qaydada nəsə dəyişiklik edilməsi lazımdırsa, dəyişiklik edək. Şəffaflığı təmin etmək istəyirik. Ona görə bu məsələyə maksimum həssaslıqla yanaşmalıyıq. Çox sağ olun ki, bunu bizə xatırlatdınız. Digər məsələlərinizi yazılı şəkildə verməyinizi xahiş edirəm.

Növbəti çıxış üçün söz 29 saylı Naxçıvan şəhər seçki dairəsindən olan deputatımız Aidə xanım Allahverdiyevaya verilir. Buyurun, Aidə xanım!

**A.Allahverdiyeva.** Təşəkkür edirəm, Anar müəllim! Sizi və bütün sessiya iştirakçılarını salamlayıram.

Bir məsələni diqqətinizə çatdırmaq istəyirəm ki, 29 saylı Naxçıvan şəhər seçki dairəsinin əhatə etdiyi Babək məhəlləsi böyük infrastruktur layihələrlə əhatə olunmuş bir məhəllədir. Nəzərə alaq ki, burada böyük məktəb binası, uşaq bağçası, musiqi məktəbi və bir sıra təşkilatlar yerləşir. Bu məhəllədə yerləşən sakinlər bir məsələ ilə bağlı müraciət ediblər. Babək məhəlləsində yerləşən 19, 20 və digər saylı yaşayış binaları ilə Naxçıvan şəhəri, Hacıniyyət kəndi arasında əsas yol keçir və bu yoldan marşrut avtobusu işləyir, amma o ərazidə piyadalar üçün dayanacaq yoxdur. Sakinlər isti, yağışlı havada əziyyət çəkdiklərini bildirirlər. Eyni zamanda piyadaların təhlükəsizliyi üçün heç bir piyada zolağı və ya tramplin yoxdur. Əhali sıxlığını, maşınların sürətli keçməsini də nəzərə alsaq, təhlükəsizlik baxımından piyada zolağı və ya tramplin, marşrut gözləmək üçün dayanacağın olması zəruridir.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Çox sağ olun! Xahiş edirəm ki, bu məsələni yazılı şəkildə Ali Məclisin Aparatına təqdim edəsiniz.

Növbəti çıxış üçün söz 21 saylı Məzrə seçki dairəsindən olan deputat Esmira xanım Həsənovaya verilir. Buyurun, Esmira xanım!

**E.Həsənova,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədr müavini.*

Hörmətli Anar müəllim! Hörmətli həmkarlar!

Hər birinizi salamlayıram!

Cənab Prezidentimizin andiçmə mərasimindəki nitqində Azərbaycan gəncləri ilə bağlı səsləndirdiyi fikirlər həm gənclərimizə göstərilən böyük etimad, həm də onların gələcək həyat və fəaliyyəti üçün əsl yol xəritəsidir. Ölkə Prezidenti gənclərimizin intellektual və vətənpərvər ruhda tərbiyəsinin ölkəmizin gələcəyi üçün son dərəcə həlledici olduğunu diqqətə çatdırdı. Övladlarımızın vətənpərvər ruhda böyüməsi üçün təhsil ocaqlarımızdan başlamalıyıq. Ona görə də məktəblərdə tədrisin keyfiyyətini yüksəltmək və əsas olaraq tədris olunan "Gənclərin çağırışaqədərki hərbi hazırlıq" dərslərini ciddi nəzarətə götürmək lazımdır. Məktəblərdə işləyən hərbi rəhbərlərin iş təcrübəsi və dərslərin necə tədris olunması yoxlanılmalıdır.

Digər məsələ, deputat seçildiyim 21 saylı Məzrə seçki dairəsindən, xüsusilə də Sirab və Zeynəddin kəndlərində olan işsizliklə bağlı problemlərdir. Kənd camaatı yeni iş yerlərinin açılmasını xahiş edirlər.

Sirab kəndində 2700 nəfər yaşayır, onun 756-sı təsərrüfatla məşğuldur. Kənddə içməli suyun bir yerdə olması əhalinin su ilə təminatında böyük problemlər yaradır. Kənd camaatı içməli suyun kəndin başqa bir yerinə də çəkilməsini tələb edirlər.

Diqqətinizə görə minnətdaram!

**Sədrlik edən.** Çox sağ olun, Esmira xanım!

Bu gün iclasımızda ancaq xanım deputatlarımız çıxış edir, bu da bizim məclisdə gender bərabərliyinin yüksək səviyyədə olduğunun göstəricisidir. Düşünürdüm ki, bu gün sadəcə qadın deputatlarımız çıxış edəcək, amma çıxışa yazılanlar içərisində 5 saylı Alışar seçki dairəsindən olan deputat Əmir Babayev də var. Buyurun, Əmir müəllim!

**Ə.Babayev.** Mən millət vəkillərinin diqqətini bir məsələyə cəlb etmək istəyirəm ki, son zamanlarda bir neçə nəfər imkansız ailələrdən ailə başçıları yanıma gəldilər. Şərur rayon Arpaçay kənd sakini Həsənov Məhəbbət Heydər oğlu mənə müraciət edərək bildirdi ki, xəstədir, 2 dəfə əməliyyat olunub və fiziki gücünü demək olar ki, tamamilə itirib. Həyat yoldaşı işləmir, ailədə 5 nəfər məktəbli var. Evə heç bir gəlir gəlmir. Məşğulluq Mərkəzinə müraciət edib, amma ona yalnız ağır sahələrdə iş təklif ediblər. O, hələ də işlə təmin oluna bilməyib və ailəni dolandıra bilmir. Bu məsələni qlobal məsələ kimi qəbul edirəm, çünki Məhəbbət kimi onlarla sakinimiz var. Təklif etmək istəyirəm ki, Məşğulluq mərkəzlərində bu cür insanlara kömək göstərilməsi üçün bir yol müəyyənləşdirilsin. Maddi cəhətdən yol göstərilsin, yaxud yüngül iş sahələri təklif olunsun ki, bu insanlar ay ərzində ailələrinə heç olmazsa müəyyən məbləğdə pul apara bilsin. Xahiş edirəm bu məsələni diqqətdə saxlayaq.

Növbəti müraciət əlilliyə görə pensiya alan bir vətəndaş tərəfindən olunub. 2021-ci ildə onun əlilliyə görə aldığı pensiya dayandırılıb. Səbəb isə Nazirlər Kabinetinin müəyyənləşdirdiyi xəstəliklər sırasında onun xəstəliyinin adının qeyd olunmamasıdır. Ailənin yeganə gəlir mənbəyi əlillikdən alınan vəsait idi. İndi bu vəsait dayandırılıb, həyat yoldaşı işləmir, məktəbə gedən uşaqları var, ailəni dolandıra bilmir. Bununla bağlı Məşğulluq mərkəzlərində bir yol müəyyənləşdirilməsini, insanlara köməklik göstərilməsini istərdim.

Əlavə olaraq, burada içməli su məsələsi qaldırıldı. Bu məsələ ilə bağlı mən də müəyyən qədər fikirlərimi bildirmək istəyirəm. Arpaçay kimi yüksək keyfiyyətli, gözəl bir su mənbəyimiz var. Amma təəssüflər olsun ki, suyun səviyyəsi xeyli azalmışdır. İnsanlar demək olar ki, ondan qəti surətdə istifadə edə bilmir. İstər rayon mərkəzlərində, istərsə də su çəkilmiş kəndlərdə o sudan istifadə edə bilmirlər. Su iylənir və yaxud çirkli gəlir. Xahiş edirəm ki, bu məsələ də nəzarətə götürülsün.

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Sağ olun, Əmir müəllim!

Məşğulluqla bağlı problemlər təkcə sizdə deyil, bütün deputat həmkarlarım etiraf edər ki, bizə müraciət edən vətəndaşların bir çoxunun problemi odur. Əgər problemləri sıralasaq

birinci yerdə iş məsələsidir, ikinci yerdə su problemləri, üçüncü yerdə əvvəllər mülkiyyət hüquqlarının pozulmasıyla bağlı müraciətlər idi. Ali Məclisdə bunların statistikasını da təqdim etmişdik. Hamınız tanış olmuşdunuz. Bizə düşən bunu müvafiq orqanlara, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə çatdırmaqdır ki, həmin şəxslərə dəstək olsunlar.

Mən təklif edirəm ki, bu gün cari məsələlərdə səsləndirilən müraciətlər ümumiləşdirilsin və müvafiq orqanlara, yaxşı olar ki, elə hökumətə çatdırılsın, çünki bunların cavabdeh təşkilatı hökumətdir. Muxtar respublikada sosial-iqtisadi sahəyə cavabdeh qurum Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetidir. Bütün qurumlar da Nazirlər Kabinetində cəmləşib, onlara göndərək və buna cavab alaq. Əgər cavab qane etməsə, hökumətin növbəti hesabatı zamanı onların işlərinə qiymət verməli olacağıq. Ümid edirəm ki, hökumət bu məsələyə həssas yanaşacaq. Keçən dəfə qaldırılan məsələlərdən bir çoxu artıq öz həllini tapmışdır. Məsələn, Aidə xanım burada bina ilə bağlı çıxış etdi. Bildiyimə görə, Aidə xanımın qaldırdığı məsələlərlə maraqlanılıb, bunun üçün də vətəndaşlarda məmnuniyyət var. Fərəc müəllimin qaldırdığı Dizə kəndinin su məsələsi kimi başqa sahələrdə də, məncə bir razılaşma tapıb hökumətlə bu sahələri işləmək lazımdır. Əgər hər hansısa sahədə ciddi problem varsa, onu müzakirə etməkdən çəkinmək lazım deyil. Məsələn, vətəndaş suyu pulsuz almır, pul ödəyir və istəyir ki, yaxşı keyfiyyətdə su gəlsin və ondan istifadə etsin.

Əgər başqa çıxış etmək istəyən yoxdursa bugünkü iclasımızı qapalı elan edim.

Yoxdur.

Sağ olun!